

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 70 (21.222)

11 aprel 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Prezident İlham Əliyev 2015-ci ilin birinci rübünün yekunlarının müsbət olduğunu, bu dövrdə ümumi daxili məhsulun 5 faizdən çox artdığını dedi. Dövlətimizin başçısı Azərbaycanda dinamik inkişafın təmin edildiyini, son 3 ayda qeyri-neft sektorunun 7 faiz, sənaye istehsalının 4 faiz, kənd təsərrüfatının isə 3 faizdən çox artdığını bildirdi.

Birinci rübdə də regionlarda müsbət meyillərin davam etdiyini, 30 minə yaxın yeni iş yerinin yaradıldığını deyən Prezident İlham Əliyev bildirdi ki, ölkədə sosial məsələlərin həlli yenə də diqqət mərkəzindədir.

Sonra Vergilər naziri Fazil Məmmədov, Nəqliyyat naziri Ziya Məmmədov, Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev ilin birinci rübündə görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə etdilər.

Yekun nitqində Prezident İlham Əliyev qeyri-neft sektorunun və sahibkarlığın inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsinin zəruriliyini vurğuladı. Nitqinin sonunda Prezident İlham Əliyev ilk Avropa Oyunlarına hazırlığın yüksək səviyyədə getdiyini, artıq bir sıra idman obyektlərinin istifadəyə hazır olduğunu, Atletlər Kəndi ilə yanaşı, Media Kəndinin də yaradıldığını bildirdi. Paralel olaraq paytaxtda abadlıq-quruculuq işlərinin davam etdirildiyini, yeni bulvar xəttinin salındığını diqqətə çatdırdı.



## Naxçıvanda Daxili Qoşunların hərbi hissəsinin yaranmasının 20 illiyi qeyd olunmuşdur

Aprelin 10-da Naxçıvanda Daxili Qoşunların hərbi hissəsinin yaranmasının 20 illiyi münasibətilə təntənəli mərasim keçirilmiş, zabit-gizir ailələri üçün yeni yaşayış binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Əhməd Əhmədov mərasimə gələn Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova raport vermişdir.

Ali Məclisin Sədri şəxsi heyəti salamlamışdır.

Dövlət himni səsləndirilmişdir.

Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının komandiri, polkovnik İlkin Əsədov mərasimdə çıxış edərək demişdir ki, muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər daxili işlər orqanlarını da əhatə etmişdir. Bu qayğıdan bəhrələnən Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası ötən 20 ildə əsl təşkilatlanma yolu keçmişdir. İstər əsgərlərin, istərsə də zabit-gizir ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, yeni xidməti və yaşayış binalarının tikilib istifadəyə verilməsi sahəsində görülən işlər ardıcıl xarakter almışdır. İlkin Əsədov Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının maddi-texniki bazasının və xidmət şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlərə görə şəxsi heyət adından minnətdarlıq etmiş, bundan sonra da qarşıya qoyulan vəzifə və tapşırıqları layiqincə yerinə yetirəcəklərini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvanda Daxili Qoşunların ilk hərbi hissəsinin yaradılmasının 20 illiyi münasibətilə hərbi hissənin şəxsi heyətini təbrik edərək demişdir: “Tarixboyu hər bir xalq müstəqil olmaq, öz dövlətçiliyini yaratmaq istəyib. Lakin dövlət müstəqilliyi yaratmaq heç də bütün xalqlara müyəssər olmayıb. Ona görə ki, müstəqillik üçün, ilk növbədə, güclü ordu yaradılmalıdır. Ordusu olmayan, ictimai təhlükəsizliyi, sabitliyi qorunmayan dövlət müstəqil ola bilməz. Bu gün Azərbaycan müstəqil dövlətdir. Ona görə ki, onun güclü ordusu var; ona görə ki, Azərbaycanda sabitlik var, əmin-amanlıq, ictimai təhlükəsizlik möhkəm şəkildə qorunur”.





Ali Məclisin Sədri demişdir: “Azərbaycan xalqının milli sərvətinə çevrilən müstəqillik və onun qarantı olan ordu quruculuğu ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında mühüm tarixi xidmətidir. Ordunun hər bir dövlətin müstəqilliyi üçün vacib şərtlərdən olduğunu daim diqqət mərkəzində saxlayan ulu öndərimiz deyirdi ki, ***“hər bir müstəqil dövlət müstəqil olmaq üçün bir neçə amillərə malik olmalıdır – onun müstəqil yaşaması üçün ərazisi, iqtisadiyyatı, təbii sərvətləri olmalıdır, müstəqil dövləti qoruyan ordusu olmalıdır, daxili vəziyyəti qoruyan qüvvələri olmalıdır. Bunlar olmasa, müstəqil dövlət ola bilməz”.*** Ümummilli liderimizin ali hakimiyyətə ikinci qayıdışından sonra dövlət müstəqilliyimiz sarsılmaz xarakter aldı. Artıq bu dövrdən ölkəmizdə sabitliyin qorunmasının mühüm təminatçısı kimi Daxili İşlər Nazirliyinin, o cümlədən onun Daxili Qoşunlarının funksiya və vəzifələri dövlətin təhlükəsizlik prinsiplərinə əsasən formalaşdırıldı. 1994-cü il fevralın 8-də qəbul edilmiş “Daxili Qoşunların statusu haqqında” Azərbaycan Respublikasının Qanunu Daxili Qoşunların əsas vəzifələrini və fəaliyyət prinsiplərini müəyyənləşdirdi. Daxili Qoşunları xalqın və dövlətin layiqli müdafiəçisi kimi görmək istəyən ulu öndərimiz deyirdi ki: ***“Gərək Daxili Qoşunlarda yüksək vətənpərvərlik ruhu olsun. Gərək bizim Silahlı Qüvvələrimizdə Azərbaycanın dövlətçiliyinə daim sədaqət olsun. Azərbaycanın güclü ordusu bu gün də, sabah da, yüz il bundan sonra da lazımdır. Bunun üçün planlı iş aparılmalı, peşəkar münasibət göstərilməlidir”.***



Ali Məclisin Sədri demişdir ki, ordu quruculuğunda ümummilli liderimizin irəli sürdüyü “planlı iş, peşəkar münasibət” siyasəti bu gün ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının diqqət və qayğısı ilə Azərbaycan Silahlı Qüvvələrinin mühüm tərkib hissəsi olan Daxili Qoşunların təkmilləşdirilməsi sahəsində ardıcıl tədbirlər görülür. Bu tədbirlər Daxili Qoşunların Naxçıvandakı hərbi hissəsinin fəaliyyətinin gücləndirilməsində də öz əksini tapmışdır. 20 il bundan əvvəl – 1995-ci il aprelin 10-da Naxçıvanda yaradılan Daxili Qoşunların taboru böyük təşkilatlanma yolu keçmiş, inkişaf edərək alaya, 2014-cü ildə isə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasına çevrilmişdir.

Qeyd olunmuşdur ki, muxtar respublikada Azərbaycan Respublikası Silahlı Qüvvələrinin digər birləşmə və bölmələri kimi, Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının da xidməti-döyüş fəaliyyətinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır, hərbi hissənin maddi-texniki bazası ilbəil gücləndirilir. Ötən dövr ərzində briqadanın fəaliyyətinin təşkili, idarə olunması və şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Hərbi hissənin yerləşdiyi ərazidə geniş quruculuq işləri aparılmış, ən müasir infrastruktur və nümunəvi hərbi şəhərcik yaradılmışdır.

Ardı 2-ci səhifədə





Bu gün Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasında yüksək mənəvi-psixoloji hazırlığa malik əsgər və zabitlər xidmət edirlər. Son illər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikada yerləşən ordu, birləşmə və hissələrinin birgə taktiki təlimlərində Daxili



Qoşunların şəxsi heyətinin də iştirakı və verilən tapşırıqların peşəkarlıqla icrası bu hərbi hissədə əldə olunan nailiyyətlərin daha bir ifadəsidir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ***"Daxili Qoşunlar Azərbaycanda sürətlə inkişaf etmişdir, çox yüksək səviyyədə peşəkarlıq var, vətənpərvərlik var. Bu, bizim***



***üçün çox böyük nailiyyətdir. Azərbaycanda ictimai-siyasi vəziyyətin qorunması və möhkəmləndirilməsi bizim hamımız üçün başlıca şərt olmalıdır. Yalnız bu şəraitdə ölkə uğurla inkişaf edə bilər"*** fikrini xatırladan Ali Məclisin Sədri Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının möhkəmlənməsində və inkişafında xidməti və əməyi olan şəxslərə təşəkkürünü bildirmiş, xidməti vəzifələrin yerinə yetirilməsində onlara uğurlar arzulamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında" 2015-ci il 11 mart tarixli Sərəncamı ilə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının zabiti, mayor Rəşadət Mamedov "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuşdur.

Ali Məclisin Sədri "Hərbi xidmətlərə görə" medalının vəsiqəsini və döş nişanını təqdim etmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini, Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandırmış, zabit-gizir ailələrinə yeni xidməti mənzillərin order və açarlarını təqdim etmişlər.

Şəxsi heyət təntənəli marşın sədaları altında tribunanın önündən keçmiş, xüsusi təyinatlı dəstənin nümunəvi çıxışları olmuşdur.

Hərbi qulluqçular silah və texnikalardan istifadə edərək verilən tapşırıqları məharətlə yerinə yetirdilər. Xüsusi təyinatlıların nümunəvi çıxışları bir daha şəxsi heyətin yüksək mənəvi-psixoloji hazırlığından və ruh yüksəkliyindən xəbər verirdi.

Mərasimdə ulu öndər Heydər Əliyevin ***"Bizim Silahlı Qüvvələrimiz, bizim ordumuz bizim sülhsevər siyasətimizlə yanaşı, hər dəqiqə, hər an Azərbaycan torpaqlarını qorumağa, işğal olunmuş torpaqların azad olunmasına hazır olmalıdır. Bizim ordumuz güclənəcək, müstəqil dövlətimiz daha da ucalara qalxacaq, Azərbaycan müstəqil dövlət kimi daim yaşayacaqdır. Yaşasın güclü, qüdrətli Azərbaycan əsgəri, Azərbaycan Ordusu!"*** fikirləri səslənmiş, desantlar vertolyotdan ümummilli liderin portretini və Dövlət bayrağını nümayiş etdirmişlər.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının xüsusi dəstələrinin təchizatı və xidməti döyüş fəaliyyətinin təşkili ilə maraqlanmış, avtomobil və döyüş texnikalarına baxış olmuşdur.

Bildirilmişdir ki, Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının maddi-texniki bazası müasir texnika və xüsusi təyinatlı vasitələrlə təchiz edilmişdir. Bu da daxili intizam tədbirlərinin həyata keçirilməsində, ictimai asayişin qorunmasında və təhlükəsizliyin təmin olunmasında



qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirməyə imkan verir. Döyüş texnikaları və artilleriya qurğuları isə istənilən döyüş əməliyyatının yerinə yetirilməsində, o cümlədən düşmənin canlı qüvvəsinin, atəş vasitələrinin və zirehli texnikalarının məhv edilməsində istifadə olunur. Müasir radiorabitə vasitələri döyüş tapşırıqları yerinə yetirilərkən bölmələr arasında əlaqənin qurulması və şəxsi heyətin istiqamətləndirilməsi zamanı tətbiq olunur.

Briqadaya 2 ədəd yeni "Hyundai" markalı avtobus, 1 ədəd "Ford Cargo" markalı avtomobil, 1 ədəd tibbi yardım maşını və 5 ədəd motosiklet təqdim olunmuşdur. Yeni verilmiş avtomobil və motosikletlər şəxsi heyətin daşınması, xəstə və yaralıların təcili təxliyə edilməsi, bölmələrin çevik hərəkətinin təmin olunması zamanı istifadə olunacaqdır.

Ali Məclisin Sədri briqadanın yeməkxanasında olmuş, əsgərlərin qidalanması ilə maraqlanmışdır.

Sonra zabit-gizir ailələri üçün inşa olun-



muş yeni xidməti-yaşayış binasının açılışı olmuşdur.

Yeni mənzillə təmin olunan hərbçi ailələri adından minnətdarlıq edən Xublar Tarışova demişdir ki, ölkəmizdə həyata keçirilən uğurlu siyasi xətt bütün sahələri əhatə etmiş, insanların rahat yaşayışı təmin olunmuşdur. Bu gün dövlət başçısının rəhbərliyi ilə Azərbaycan qüdrətli dövlətə çevrilmişdir. Artıq güclü ordumuz vardır. Hərbi qulluqçuların və onların ailələrinin sosial-məişət şəraiti ilbəil yaxşılaşdırılır. Bu gün yeni xidməti yaşayış binasının istifadəyə verilməsi də bu sahədə görülən tədbirlərin daha bir nümunəsidir. İnsan amilinə xidmət edən bu işlər hərbçi ailələri tərəfindən minnətdarlıq hissi ilə qarşılanır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini, Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov yaşayış binasının açılışını bildirən lenti kəsmişlər.

Məlumat verilmişdir ki, 5 mərtəbədən ibarət olan binada 45 mənzil vardır. Mənzillərdə sakinlərin rahatlığı üçün lazımi şərait yaradılmış, mebel dəstləri və məişət avadanlıqları qoyulmuşdur. Hər bir mənzil fərdi istilik sistemi ilə təchiz edilmiş, daimi isti və soyuq su təminatı yaradılmışdır. Binada sakinlərin gündəlik məişət tələbatının ödənilməsi məqsədilə də zəruri tədbirlər görülmüş, zirzəmidə yeməkxana və camaşırxana istifadəyə verilmişdir. Həmçinin burada gənc zabitlər üçün 64 yerlik yataq otaqları da vardır.

Ali Məclisin Sədri baş leytenant Orxan Seyidovun yeni mənzilində olmuşdur.

Söhbət zamanı Orxan Seyidov və həyat yoldaşı Aişə Seyidova yaradılan şəraitə və göstərilən qayğıya görə minnətdarlıq etmişlər. Qeyd olunmuşdur ki, Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasında hərbi qulluqçuların nümunəvi xidməti təşkil olunur, onların sosial problemləri həll edilir.

*Ardı 3-cü səhifədə*





Yeni mənzillərin təqdim olunması zabit-gizir ailələrinin böyük sevincinə səbəb olmuşdur. Dövlət qayğısını öz üzərində hiss edən valideynlər çalışacaqlar ki, gələcəkdə ölkəmiz, xalqımız üçün yararlı övladlar böyütsünlər.

Ailənin azyaşlı üzvü Gülay Seyidova ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş şeir söyləmişdir.

Ali Məclisin Sədri zabit-gizir ailələrini yeni mənzillə təmin olunmaları münasibətilə təbrik etmiş, onlara firavan həyat arzulamışdır.

Binanın həyətində də abadlıq işləri görülmüş, yaşıllıqlar salınmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin təsis konfransı keçirilib

*Aprelin 10-da Naxçıvan Şəhər İcra Hakimiyyətinin akt zalında Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin təsis konfransı keçirilib.*

Konfransda Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin təsis olunması təklifini irəli sürərək bildirib ki, yeni birlik muxtar respublika memarlarının könüllü müstəqil yaradıcılıq birliyi olacaq. Birlik öz fəaliyyətini Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları və qanunları, digər normativ-hüquqi aktlar və Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin nizamnaməsi əsasında həyata keçirəcək.

Təklif yekdilliklə konfrans iştirakçıları tərəfindən qəbul olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin köməkçisi Kamil Süleymanov birliyin nizamnaməsi haqqında tədbir iştirakçılarına məlumat verərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin vəzifələri yaradıcılıq konsepsiyalarının formalaşdırılmasından, muxtar respublikada memarlığın inkişaf strategiyasını dövlət orqanları ilə birlikdə həyata keçirməkdən, memarlıq və şəhərsalma sahəsində qəbul olunmuş normativ aktların icra edilməsinə, tarixi-memarlıq mühitinin mühafizəsinə, muxtar respublika memarlarının peşə vərdişlərinin təkmilləşdirilməsinə kömək etməkdən, habelə memarlıq sahəsində kadr siyasətinə fəal təsir göstərməkdən ibarət olacaq.



Sonra konfransda Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin İdarə Heyətinin üzvləri seçilib. Kamil Süleymanov, Hicran Rüstəmov, Qabil Cəfərov, Əliqulu Sadıqov və Aysel Qurbanlı birliyin idarə heyətinin üzvləri seçiliblər.

Naxçıvan Muxtar Respublikası Memarlar Birliyi İdarə Heyətinin sədri vəzifəsinə irəli sürülmüş namizəd Cəfərov Qabil Zeynalabdin oğlu səs çoxluğu ilə təşkilatın sədri seçilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin şöbə müdiri Mənsum Səfərov, "Dizayn İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin əməkdaşı Hicran Rüstəmov çıxış edərək bildiriblər ki, muxtar respublikamızın özünəməxsus zəngin memarlıq ənənələri var. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada böyükhəcmli tikinti-quruculuq tədbirləri həyata keçirilib və bu tədbirlər indi də uğurla davam etdirilir. Muxtar respublikanın şəhər və rayonları ilə yanaşı, ən ucqar kənd yaşayış məntəqələrində də müasir inzibati binalar, təhsil, səhiyyə, mədəniyyət obyektləri tikilib istifadəyə verilir. Qeyd olunub ki, bu gün muxtar respublikada tikilən və ya yenidən qurulan hər bir obyekt özündə zəngin milli ornamentlərlə yanaşı, müasir memarlıq üslubunun özəlliklərini də əks etdirir. Yaddan çıxarmaq olmaz ki, bu günün tikilisi onilliklər sonra tarixi abidəyə çevrilə bilər. Bunun üçün isə tikinti işlərində arxitektura elementlərinə, keyfiyyət amilinə ciddi fikir verilməlidir. Bu baxımdan muxtar respublikada Memarlar Birliyinin yaradılması böyük əhəmiyyət kəsb edir.

Çıxış edənlər birliyin idarə heyətinin sədri vəzifəsinə irəli sürülən Qabil Cəfərovun memarlıq sahəsində uzun illər çalışdığını, əldə etdiyi zəngin təcrübəyə əsaslanaraq bundan sonra da muxtar respublikanın inkişafına öz layiqli töhfələrini verə biləcəyini qeyd ediblər.

Naxçıvan Muxtar Respublikası Memarlar Birliyi İdarə Heyətinin yeni seçilmiş sədri Qabil Cəfərov ona göstərilən etimada görə minnətdarlığını bildirib, birliyin muxtar respublikanın inkişafında layiqli yer tutacağını, muxtar respublika memarlığının və istedadlı memarların tanıdılması istiqamətində səylə çalışacaqlarını deyib.

Konfransa Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov yekun vurub.

**✍ Səbuhi HƏSƏNOV**

## Yaşayış məntəqələrinin elektrik enerjisi təminatı yaxşılaşdırılır

*Əhalinin rahat yaşayışına xidmət edən tədbirlər sırasında enerji tələbatının ödənilməsi mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə işlər mart ayında da uğurla yerinə yetirilmiş, elektrik stansiyalarının, transformator yarımstansiyalarının fasiləsiz işi, elektrik verilişi xətləri və avadanlıqlarının sazlığı diqqət mərkəzində saxlanılmışdır.*

Payız-qış mövsümünə hazırlıq və cari təmir işlərinin aparılması nəticəsində mart ayı ərzində də elektrik enerjisi təchizatında heç bir çətinlik olmamış, Araz Su Elektrik Stansiyasında generatorlar 5-6 meqavat, Naxçıvan Modul Elektrik Stansiyasında 35-40 meqavat, Biləv Su Elektrik Stansiyasında 2-3 meqavat, "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarında isə 1 meqavat gücündə işləmiş, işlədicilər fasiləsiz olaraq elektrik enerjisi ilə təmin olunmuşdur. Bu dövr ərzində muxtar respublikanın elektrik şəbəkələrinə 35 milyon 221 min 300 kilovat-saat elektrik enerjisi daxil olmuşdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən elektrik verilişi xətlərində, transformator yarımstansiyalarında qrafik əsasında əsaslı və cari təmir işləri aparılmış, yeni elektrik verilişi xətlərinin çəkilməsi, şəhər mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində tədbirlər davam etdirilmişdir. Ötən ay 35 meqavolt-amper gücündə 110 kilovoltluq "Qıvraq" yarımstansiyasında tikinti-quraşdırma işləri başa çatdırılmış, son sınaq-sazlama işləri həyata keçirilmişdir. Babək rayonunun "Nehrəm" yarımstansiyasında da tikinti-quraşdırma işləri yekunlaşmış və mart ayının əvvəllərində şəbəkəyə qoşulmuşdur. Burada yeni bina tikilmiş, 6300 kilovoltluq transformatorlar və digər lazımi avadanlıqlar quraşdırılmış, növbətçi heyətin iş şəraiti xeyli yaxşılaşdırılmışdır.

Ümumiyyətlə, ötən ay muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində 5 ədəd yeni transformator yarımstansiyası qurulmuş, 12 yarımstansiya əsaslı təmir edilmiş, 6 kilometr uzunluğunda elektrik verilişi xətləri çəkilmiş, 500 metr məsafədə hava elektrik verilişi xətti kabellərlə əvəz edilmişdir. Həmçinin Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 5 ədəd 10/0,4 kilovoltluq transformator əsaslı təmir olunaraq istismara verilmişdir. İstifadə olunan elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq və elektrik enerjisindən istifadə vəziyyətinin yoxlanılması üçün rəqəmsal elektron sayğacların quraşdırılması işləri davam etdirilmiş və mütəmadi reydlər keçirilmişdir. Bütün bunların nəticəsidir ki, ötən ay enerji itkisinə yol verilməmiş və elektrik enerjisi haqlarının sərfiyyata uyğun toplanmasına nail olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti***

## Muxtar respublikada pensiya və müavinətlər vaxtında ödənilir

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 2015-ci ilin mart ayında əmək pensiyalarının maliyyələşdirilməsini vaxtında başa çatdırmışdır.***

Bu dövrdə yerlərdə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar da nəzərə alınmaqla, 9 milyon 273 min 700 manat vəsait pensiyaçıların şəxsi hesablarına köçürülmüşdür. Eyni zamanda sosial sığorta müavinəti almaq hüququ olan vətəndaşlara 212 min 500 manat dəyərində vəsait ödənilmişdir.

Ötən ay "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, pensiya hüququ yaranmış 151 vətəndaşa əmək pensiyası təyin olunmuşdur. Onlardan 79-u yaşa görə, 35-i əlilliyə görə, 37 nəfəri isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlardır. Əmək pensiyaçılarına plastik kartların verilməsi, eləcə də istifadə müddəti başa çatmış plastik kartların yenilənməsi işləri də davam etdirilmişdir. Mart ayında bu məqsədlə müvafiq müvəkkil banklara 1608 ədəd plastik kart hazırlanması üçün sifariş verilmişdir.

Yeni əmək fəaliyyətinə başlayanlar üçün sosial sığorta şəhadətnamələrinin hazırlanması işi də diqqət mərkəzində saxlanılır. Ötən ay sığortaedənlər tərəfindən fondun yerli orqanlarına 336 ədəd ərizə daxil olmuş və araşdırma aparılaraq sosial sığorta şəhadətnamələrinin hazırlanması üçün sifarişlər verilmişdir. Həmçinin əvvəllər verilmiş sifarişlərə əsasən hazırlanan 175 sosial sığorta şəhadətnaməsi sığortaolunanlara çatdırılmışdır. İnformasiya idarəetmə sistemi vasitəsilə məcburi dövlət sosial sığortası üzrə hesabatlar elektron formada hazırlanaraq internet üzərindən müvafiq qurumlara çatdırılması işin səmərəliliyini və operativliyini artırmışdır. Mart ayında 2014-cü ilin yekunu üzrə məcburi dövlət sosial sığortası üzrə hesabatların elektron formada qəbulu başa çatdırılmışdır.

Fond və onun yerli orqanları tərəfindən sığorta-pensiya qanunvericiliyi sahəsində təbliğat və maarifləndirmə işləri də davam etdirilir. Belə ki, mart ayında məcburi dövlət sosial sığorta haqları, sığorta-pensiya sisteminin mahiyyəti, sosial sığorta sistemində fərdi uçotun təşkili, əmək pensiyalarının təyinatı və ödənişi sahələri üzrə elektron xidmətlərin tətbiqi və digər təbliğat işləri gücləndirilmiş, Şərur rayonunda "Sığorta-pensiya sisteminin mahiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər", "Avtomatlaşdırılmış pensiya təyinatı sistemi"nin üstünlükləri mövzularında maarifləndirici tədbirlər keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

*Dünən Culfa rayonunda növbəti əmək yarmarkası keçirilib.*

## Növbəti əmək yarmarkasında 33 nəfərə işə göndəriş verilib

Tədbiri giriş sözü ilə açan Culfa Rayon Məşğulluq Mərkəzinin direktoru Yalçın Hüseynov muxtar respublikada həyata keçirilən məşğulluq tədbirlərindən danışıb.

Qeyd olunub ki, işaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də muxtar respublikada müntəzəm olaraq keçirilən əmək yarmarkalarıdır. Yarmarkalara hazırlıq dövründə həyata keçirilən təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin, işaxtaran vətəndaşların fəal iştirakını təmin edib.

İşaxtaran vətəndaş Əhməd Həsənov dövlətimiz tərəfindən əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən işlər üçün minnətdarlığını bildirərək vurğulayıb ki, bu gün məşğulluq sisteminin inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, əmək bazarının tənzimlənməsi və qeyri-məşğul əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin sosial-iqtisadi siyasətinin əsas tərkib hissəsidir.

Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Qasımov çıxışında qeyd edib ki, son illərdə rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, bunun da nəticəsində minlərlə insan müvafiq işlə təmin olunub. Keçirilən əmək yarmarkalarına işaxtaran əhalinin marağının böyük olması onu göstərir ki, işaxtaranlarda bu yarmarkalarda ixtisaslarına müvafiq iş tapmalarına böyük inam vardır.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 21 təşkilatdan 169 boş iş yerinin çıxarıldığı yarmarkada 33 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

*Əziz Şərif – 120*

## "Əziz Şərifin yaradıcılıq yolu" mövzusunda konfrans

*Dünən "Naxçıvan" Universitetində Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi Əziz Şərifin anadan olmasının 120 illik yubileyi münasibətilə konfrans keçirilib.*



Konfransı giriş sözü ilə açan universitetin rektoru, professor İsmayıl Əliyev alimin mənalı həyat yolu, zəngin elmi yaradıcılığı haqqında danışıb.

Rektor qeyd edib ki, professor, Əməkdar elm xadimi Əziz Şərif ədəbi tənqid və ədəbiyyatşünaslıq sahəsində səmərəli fəaliyyət göstərib, XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının az tədqiq olunan ədəbi şəxsiyyətləri haqqında qiymətli əsərlər yazıb.

Rektor bildirib ki, görkəmli pedaqoq və elm xadiminin 120 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ədəbiyyatşünas-alimin irsinin öyrənilməsi və öyrədilməsi baxımından Naxçıvan ziyalı mühiti tərəfindən rəğbətlə qarşılanıb.

Konfransda çıxış edən Azərbaycan dili və ədəbiyyat kafedrasının dosenti Rafiq Babayev Əziz Şərif yaradıcılığındakı milli məfkurə və milli düşüncənin XX əsr Azərbaycan elmi-ədəbi və ictimai fikrinin inkişafındakı əhəmiyyətindən bəhs edib, onun ölkəmizdə alim-filoloqların yetişməsindəki fəaliyyətindən danışıb. Bildirilib ki, Əziz Şərifin taleyində görkəmli mollanəsrəddinçi Cəlil Məmmədquluzadənin çox böyük rolu olub, onun təhsil almasında Mirzə Cəlil bilavasitə iştirak edib.

"Əziz Şərifin ədəbiyyatşünaslıq fəaliyyəti" mövzusunda çıxış edən Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Nüşabə Məmmədova görkəmli ədibin həyatının maraqlı məqamları, onun yaradıcılıq axtarışları haqqında konfrans iştirakçılarına məlumat verib. Bildirib ki, ədəbiyyatşünas-alimin Azərbaycanın görkəmli şair və yazıçılarının həyat və yaradıcılığı, onların əsərlərinin əsas məziyyətləri barədə təhlili məqalələri ədəbiyyatşünaslıq tariximizin uğurlu səhifələrindəndir.

Daha sonra "Əziz Şərifin publisistik və tərcümə yaradıcılığı" mövzusunda çıxış edən həmin kafedranın baş müəllimi Nurlana Əliyeva Əziz Şərifin publisistika və ədəbi tərcümə sahəsindəki xidmətlərindən danışıb, onun Azərbaycan ədəbiyyatının qiymətli nümunələrini rus dilinə çevirərək onlara geniş oxucu auditoriyası qazandırdığını bildirib. Eyni zamanda ədibin klassik rus ədiblərinin əsərlərinin də Azərbaycan dilinə tərcüməsi onun əvəzsiz xidmətlərindəndir. Onun Naxçıvan haqqında məqalələri, teatr sənətinə aid publisistik yazıları oxucuların diqqətini həmişə cəlb edib.

Sonda universitet tələbələrinin təqdimatında Əziz Şərifin ədib dostları ilə yazışmalarından parçalar səsləndirilib, onun həyat və yaradıcılığı haqqında maraqlı məqamları əks etdirən slayd izlənilib.

✍ **Əli CABBAROV**

## Gənc rəssamın sərgisi açılıb





*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Rusiya Federasiyasının Sankt-Peterburq Rəssamlıq Akademiyasında təhsil alan naxçıvanlı tələbə Xaqan Bayramovun əsərlərindən ibarət rəsm sərgisi açılıb.*

Sərginin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyevanın, Xalq rəssamı Arif Hüseynovun, Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyevin , Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmovun çıxışları olub. Çıxış edənlər ilk sərgisi açılan gənc rəssama yeni-yeni yaradıcılıq uğurları arzulayıblar.

Tədbirdə Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş konsulu Nihat Erşen, İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrım çıxış edərək gənc rəssamın ilk sərgisində iştirakları̇ndan məmnun olduqlarını ifadə ediblər.

Sonra sərgiyə baxış olub. "Paltar ütüləyən qadın", "Gənc rəssam", "Vida", "Xalça uğrunda mübarizə", "Qaçqınlar", "Ərəfsə mənzərəsi", "Qafqaz dağlarında", "1945-ci il", "Köhnə Bakı", "Baba və nəvə", "Quba", "Natürmort", "Katyanın portreti", "Çarmıxa çəkilən adam" "Rəssamın portreti", "Etüd", "Rəssamın dünyası", "Marmaris" və digər əsərlərə tamaşaçılar böyük maraq göstəriblər. Ümumiyyətlə, sərgidə gənc rəssamın 50-yə yaxın rəsm əsəri nümayiş etdirilir.

Xatırladaq ki, naxçıvanlı rəssamsevərlərin iki gün ərzində sərgidəki əsərlərlə tanış olmaq imkanı olacaq. Bundan sonra gənc rəssam Türkiyənin İstanbul şəhərində keçiriləcək rəsm sərgisində iştirak etmək üçün Naxçıvandan Türkiyəyə yola düşəcək.

## Gənclər hərbi xidmətə yola salınır

***Naxçıvan şəhərində gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib. Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində keçirilən mərasimdə əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Mərasimdə xidmətin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik-leytenant Elxan Əliyevin, Azərbaycan Vətən Müharibəsi və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərovun, Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Sərdar Salahovun çıxışları olub. Çıxış edənlər gəncləri hərbi xidmətə yola düşmələri münasibətilə təbrik edərək sürətlə inkişaf edən ölkəmizdə ordu quruculuğunda qazanılan uğurlardan danışıb, çağırışçılara Vətənin layiqli əsgəri olmağı, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər.

Valideynlər adından çıxış edən Rüstəm İsmayılov ordu sıralarına yola düşən gənclərə xoş arzularını bildirərək övladlarının hərbi xidmətə yollanmasından böyük qürur hissi keçirdiklərini deyib. O, ordumuzun gücü, qüdrəti qarşısında heç bir qüvvənin davam gətirə bilməyəcəyini bildirib, hər bir gəncə bu orduda layiqincə xidmət etməyi arzulayıb.

Çağırışçılardan Telman İsmayılov Vətənə xidmət etməyə yola düşdüyü üçün qürur duyduğunu və ən böyük arzusunun işğal altında olan torpaqların düşmən tapdağından azad etmək olduğunu bildirib. O deyib ki, Naxçıvanda gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi ruhunda yetişmələrinə böyük önəm verilməsinin hərbi xidmətə yollanan bütün gənclər kimi, ona da böyük təsiri olub. Son dərəcə məsul və şərəfli vəzifə daşıdığını tam məsuliyyətilə hiss edir və həyatının yeni mərhələsinə inamla qədəm qoyur. Buna görə də orduda ləyaqətlə xidmət edəcək, komandirlərin hər bir tapşırığını dəqiqliklə yerinə yetirəcək, hərbi biliklərə əzmlə yiyələnəcək, düşmənə sarsıdıcı zərbə vurmağa hər an hazır olacaqdır.

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkə vətəndaşlarının 2015-ci il aprelin 1-dən müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncamına əsasən gənclər hərbi xidmətə yola salınır.

Həmin gün Babək rayonunda da gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib.

✍ **Səbuhi HÜSEYNOV**

## Enerji resurslarından səmərəli istifadə günün tələbidir

### *Maarifləndirici tədbirdə bu məsələ ilə yanaşı, kənd təsərrüfatı sahəsində həyata keçirilən sığorta növlərindən də bəhs edilib*

Dövlətin böyük qayğısı və diqqəti nəticəsində muxtar respublikamızda əhali fasiləsiz elektrik enerjisi və təbii qazla tam təmin olunub. Hazırda qarşıda duran başlıca vəzifə enerji resurslarından səmərəli istifadə olunmasından ibarətdir. Ona görə də hər bir idarə, müəssisə və təşkilat, eləcə də hər bir vətəndaş elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına qətiyyən yol verməməlidir.

Bu fikirlər dünən Naxçıvan Şəhər Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan şəhərinin Əliabad qəsəbəsində keçirilən enerji resurslarından səmərəli istifadə, həmçinin kənd təsərrüfatı sahəsində sığortalarla bağlı maarifləndirici tədbirdə səsləndirilib.

Tədbiri Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov açıb.

Naxçıvan şəhər prokurorunun müavini, I dərəcəli hüquqşünas Qalib İsmayılov "Enerji resurslarının talanması məsuliyyətə səbəb olur" mövzusunda məruzə ilə çıxış edərək deyib ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin mülkiyyət əleyhinə olan cinayətlər fəslinə yeni maddə – "Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması" maddəsi əlavə edilməklə cinayət qanunvericiliyində bir sıra əməllər cinayət kimi təsbit edilib. O, qanunsuz istifadə halları ilə əlaqədar Cinayət Məcəlləsindəki maddələr barədə sakinlərə ətraflı məlumat verib.

Sonra Naxçıvan şəhər prokurorunun köməkçisi, III dərəcəli hüquqşünas Turqay Həşimli "Kənd təsərrüfatı sahəsində sığortalar" mövzusunda çıxış edib. Kənd təsərrüfatı sahəsində sığortalarla bağlı münasibətləri 18 iyun 2002-ci il tarixdə qəbul edilmiş "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu nizama salır. Qeyd edilən qanun Azərbaycan Respublikasında mülkiyyət formasından asılı olmayaraq, kənd təsərrüfatı məhsulları istehsalçılarının əmlakının sığortasının stimullaşdırılmasının hüquqi və iqtisadi əsaslarını müəyyən edir, sığortanın iştirakçıları arasında münasibətləri tənzimləyir.

Turqay Həşimli "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu və ona uyğun qəbul edilmiş normativ-hüquqi aktlar barədə sakinlərə məlumat verib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

✍ **Kərəm HƏSƏNOV**

*Vasif Adıgözəlov – 80*

## Ədəbi-musiqili tədbir

*Görkəmli bəstəkar, professor Vasif Adıgözəlovun 80 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 fevral 2015-ci il tarixli Sərəncamı ilə Tədbirlər Planı təsdiq edilib.*



Tədbirlər planında "Azərbaycan bəstəkarlığının inkişafında Vasif Adıgözəlovun rolu" mövzusunda konfransın keçirilməsi, görkəmli sənətkarın bəstəkar, pedaqoq və fəal ictimai xadim kimi hərtərəfli fəaliyyətinə həsr olunmuş tədbirlərin təşkili, musiqi məktəblərində bir dərs saatının Vasif Adıgözəlovun yaradıcılığına həsr olunması nəzərdə tutulub. Yubiley münasibətilə Naxçıvan şəhər 3 nömrəli Uşaq musiqi məktəbində ədəbi-musiqili gecə keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm nazirinin müavini Natəvan Qədimova açıb.

Məktəbin direktoru Günay Əliyeva "Vasif Adıgözəlovun həyat və yaradıcılığı" mövzusunda çıxış edib. Qeyd olunub ki, sənətkar ömrü heç bir zaman tükənmir və onun yaratdığı sənət aləmi əlçatmaz bir ümmana bənzəyir. Bu ümmanın bir zərrəsi sənətkar ömrünü əbədiləşdirməyə kifayət edir. Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri, "Şöhrət" və "İstiqlal" ordenli, unudulmaz bəstəkarımız Vasif Adıgözəlov da belə sənətkar ömrü yaşayıb, milli musiqi mədəniyyətimizə bir-birindən dəyərli sənət nümunələri bəxş edib. Onun mahnılardan tutmuş irihəcmli simfonik əsərlərədək müxtəlif musiqi janrlarını əhatə edən yaradıcılığı öz yüksək peşəkarlıq səviyyəsi və musiqi dilinin orijinallığı ilə diqqəti cəlb edərək geniş dinləyici kütlələrinin rəğbətini qazanıb.

M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının Musiqi-not şöbəsinin müdiri Nailə Əsədova "Vasif Adıgözəlovun vokal yaradıcılığı" mövzusunda çıxış edərək bildirib ki, onun romans və mahnı yaradıcılığı milli mədəniyyətimizin ən gözəl nailiyyətləri xəzinəsində mühüm yer tutur. Bəstəkarın mahnı və romans yaradıcılığı nəinki Azərbaycanda, hətta sərhədlərimizdən uzaqlarda da geniş şöhrət tapıb. Onun görkəmli şairlərimizin sözlərinə bəstələnmiş "Yeddi çinar", "Qərənfil", "Ay olmaq istəyirəm" əsərləri musiqi mədəniyyətimizin ən dəyərli incilərindəndir.

Sonra görkəmli bəstəkar Vasif Adıgözəlovun 80 illik yubileyinə həsr edilmiş konsert olub.

✍ **Sara ƏZİMOVA**


## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində "fotoqraf" peşəsi üzrə kurs təşkil edir.

Tədris müddəti 2 aydır. Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2015-ci il aprel ayının 18-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Sağlamlıq haqqında arayış.*

***Əlaqə telefonu: 545-32-33***

### *İtmişdir*

Naxçıvan şəhəri, "Əlincə" məhəlləsi, bina 21, mənzil 46-da yaşamış Axundova Şərəbanı Əsgər qızının adına olan 7252 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Muxtar Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 296**